***Bütün dünya ötən il 44 gün döyüşlər gedən bölgəni – Qarabağ və Şərqi Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi kimi tanısa da, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində erməni silahlı qüvvələrinin həmin ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması vurğulansa da, Ermənistan işğalçı əməllərindən əl çəkmirdi. Azərbaycanın, nəhayət, səbri tükəndi: düşmən ölkənin silahlı qüvvələri keçən il sentyabrın 27-də Azərbaycana qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra ordumuz beynəlxalq hüquqa əsaslanaraq, ərazi bütövlüyümüz uğrunda əks-hücumla tarixi torpaqlarımızı yağılardan xilas etdi. Prezident İlham Əliyev müharibə başlayan gün xalqa müraciətində bu barədə dedi: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.***

***Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"***



# Azərbaycan xalqının böyük arzularını gerçəkləşdirən lider

Beləliklə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun sentyabrın 27-də Qarabağda Ermənistan silahlı qüvvələrinə qarşı başlatdığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək düşmən həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verdi, 5 şəhər, 4 qəsəbə və 286 kənd düşməndən təmizləndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik azad olundu.

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalandı. Bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da ermənilərin "Böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoyuldu.

Beləliklə, dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Ordumuz uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Azərbaycanın Vətən müharibəsindəki parlaq qələbəsi ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun güc-qüdrəti, döyüş ruhunun məntiqi nəticəsi idi.

Dövlətimizin başçısı İkinci Qarabağ savaşına qədər ordumuzun gücləndirilməsinə daim önəm vermişdi, ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirmişdi. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxlamışdı. Məhz bütün bunların nəticəsi idi ki, 44 günlük döyüşdə silahlı qüvvələrimiz möhtəşəm uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübuta yetirdi.

Vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası isə müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması isə ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün olub. Ulu öndərin uzaqgörən müdrik siyasəti ilə həmin vaxtdan etibarən silahlı qüvvələrimizin inkişafı diqqət mərkəzində saxlanılıb. Məhz buna görə də o zaman yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələrimiz tərəfindən Ermənistanın güclənən hücumlarının qarşısı böyük mətinliklə alınıb, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovdağda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirilərək çoxsaylı yaşayış məntəqələri, strateji əhəmiyyət daşıyan yüksəkliklər düşməndən azad edilib.

Ümummilli liderin təhlükəsizlik siyasəti və strategiyası, ordu quruculuğu ilə bağlı başladığı işlər dövlətimizin başçısı cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başladığı ilk gündən uğurla davam etdirilib, hərbi quruculuq məsələsi prioritet istiqamətlərdən biri olub. Ümumiyyətlə, ölkə rəhbəri ötən 18 il ərzində bu vədinə sadiq qalıb, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər görüb, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail olub. Ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxlayıb.

Vətən müharibəsində tarixi qələbənin əldə edilməsində isə ən önəmli amil silahlı qüvvələrimizdəki ruh yüksəkliyi, xalq–Prezident–ordu vəhdəti oldu. Bu, Azərbaycana qarşı başlanan hücum əməliyyatlarının ilk günlərindən minlərlə gəncin orduya könüllü olaraq yazılmasında, dinc insanların təxribatlar zamanı evlərini tərk etməmələrində özünü göstərdi. Bu, döyüşlər getdiyi dövrdə Azərbaycan Prezidentinin hər gün özünün rəsmi "Twitter" səhifəsində, xarici televiziya kanallarına müsahibələrində hadisələrin gedişatı ilə bağlı xalqa məlumat verməsində, ordumuzun nailiyyətlərini vətəndaşlarımızın diqqətinə çatdırmasında özünü büruzə verdi. Bu, eyni zamanda, Azərbaycanı bütün dünyaya güclü orduya malik bir dövlət, xalq–Prezident vəhdəti yaşanan bir respublika kimi tanıtdı.

Azərbaycan döyüş əməliyyatları zamanı haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Ermənistan isə uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutdu. Lakin buna baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.

Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və döyüş vasitələri hərbi qənimət olaraq götürüldü, bir hissəsi isə məhv edildi. Zəfər paradında Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə işğalçının istifadəsində olan yararlı və yararsız texnikaların da yer alması sevindirici məqam idi. Bu, milli qürur və iftixar hissi doğururdu.

Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq qələbəyə informasiya mübarizəsində də nail oldu. Prezident İlham Əliyev dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına çoxsaylı müsahibələrində suallara dəqiq, məntiqli, faktlara söykənən cavabları ilə Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. Bununla da düşmənin və havadarlarının ölkəmiz haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etdi, onların bütün avantüra, qarayaxma kampaniyalarının, təzyiq cəhdlərinin qarşısını qətiyyətlə aldı, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığını bildirdi.

Vətən müharibəsi günlərində dövlətimizin başçısının beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulan ardıcıl çıxışları informasiya müharibəsində boşluğun yaranmasının qarşısını aldı. Belə bir vəziyyət isə təbii ki, düşmənin saxta xəbərlərinin (fake news) ayaq açıb yeriməsinə imkan vermədi.

İnformasiya mübarizəsindəki uğurumuzu şərtləndirən məqamlardan birini xatırlatmaq istərdik. Əvvəla onu qeyd edək ki, Azərbaycan hər zaman tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verib. Ölkəmizdə bütün millətlərin, dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşamaları üçün bütün zəruri şərait yaradılıb. Tarixi-mədəni, dini abidələrimiz necə qorunubsa, digər millətlərə və dinlərə xas olan dəyərlər də eləcə mühafizə olunub. Lakin Azərbaycanın işğal altında olan torpaqları azad edildikcə həmin yerlərdə Ermənistanın həyata keçirdiyi vandalizm və barbarlıq hərəkətləri bütün çılpaqlığı ilə nəzərə çarpıb. İşğalçı ordu, ermənilər Azərbaycan ərazilərində tarixi-mədəni abidələri, məscidləri, qəbirləri dağıdıb, təhqir və talan edib.

Amma belə bir vəziyyətdə Ermənistan həyasızcasına dünyaya car çəkirdi ki, İkinci Qarabağ müharibəsində guya Azərbaycan işğaldan azad etdiyi ərazilərində erməni kilsələrini və digər xristian məbədlərini dağıdır. Təəssüf ki, ermənilərin 30 il ərzində işğalda saxladıqları Azərbaycan ərazilərində tarixi və dini abidələrimizi yerlə-yeksan etmələrinə, xüsusilə məscidlərimizi təhqir etmələrinə göz yuman dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar iftiraya, yalana, böhtana əsaslanan erməni təbliğatına bir çox hallarda uyur, hətta utanıb-qızarmadan Azərbaycan dövlətindən işğaldan azad edilən ərazilərdəki xristian məbədlərinin qorunmasına təminat istəyirdilər. Müzəffər Ali Baş Komandanımız isə – "düşməndən təmizlənən torpaqlardakı tarixi abidələr bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı bunu yaxşı bilir və bütün dünya da bilməlidir ki, mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil...", – deyə bildirdi.

Ermənistan isə istər işğal dövründə, istərsə də müharibə günlərində öz vandal xislətindən əl çəkmədi. Ermənistanın müdafiə nazirliyinin rəsmi nümayəndəsi Artsrun Ovannisyan bu vəhşiliyi–Azərbaycanın mülki əhalisini hədəfə aldıqlarını təsdiqlədi və bu fikri ilə düşmən bir daha dünyaya meydan oxuduğunu, heç bir beynəlxalq hüququ pozmaqdan çəkinmədiyini vurğuladı, eyni zamanda, "Qarabağ ordusu"nun Azərbaycan şəhərlərinə zərbələr endirməyə tam hüquqlu var", – deyə bildirdi.

Həqiqətən də, 44 günlük müharibə bir daha göstərdi ki, Ermənistan terrorçu dövlətdir. Heç kim də inkar etməz ki, terrorçular adətən qorxaq olur, qarşı tərəflə üz-üzə döyüşməkdən çəkinir. Məhz ötən il sentyabrın 27-də başlanan hərbi əməliyyatlardan sonra Ermənistan tərəfindən 100-ə yaxın dinc vətəndaşımızın qətlə yetirilməsi, 400-ə qədər insanın yaralanması, minlərlə infrastruktur obyektinin yararsız vəziyyətə salınması Ermənistanın belə bir faşist xislətə malik olmasının göstəricisi idi.

Döyüş meydanında məğlub olan mənfur düşmən mülki vətəndaşlarımızı hədəfə götürməklə bərabər, təbiətə də əl qaldırdı, qəsdən Şuşa, Laçın, Kəlbəcər meşələrini yandırmaqla işğal altında saxladığı ərazilərdə ekoloji terroru davam etdirdi və bölgənin, ümumiyyətlə isə planetimizin ekoloji durumuna qarşısıalınmaz zərərlər vurmaqla yeni növ cinayətlərə əl atdı.

Beləliklə, dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Azərbaycan Prezidenti müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Azərbaycan bu gün Vətən müharibəsində olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir. Ölkə Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılan Əlaqələndirmə Qərargahı tərəfindən düşməndən təmizlənən ərazilərin yenidən qurulması və bərpası, dağıdılan yaşayış məntəqələrinin baş planlarının hazırlanması, şəhərsalma proseslərinin sistemli şəkildə təşkili ilə bağlı qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilir, regionun ümumi planının hazırlanması çərçivəsində şəhərlərin, kənd və qəsəbələrin sərhədləri dəqiqləşdirilir, müvafiq ərazi-planlaşdırma sənədləri işlənilir. Avtomobil yollarının tikintisinə xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi aparılır. Bununla bərabər, Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin icrası da diqqətdə saxlanılır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***